# Dövlət bayrağımız-qürur mənbəyimiz

***Hələ qədimdən bayraq dövlətin müqəddəs rəmzlərindən biri sayılıb. Bayraq xalqın varlığının, sübutu, dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Ona görə də bayraq həmişə millətin qüruru, mövcudluğunun simvolu sayılıb. Belə bayraqlardan biri də müstəqil Azərbaycanımızın Dövlət Bayrağıdır ki, bu gün BMT-də, Avropa Şurasında, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizdə əzəmətlə dalğalanır.***

Azərbaycanın hazırkı üçrəngli Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin iclasında qəbul edilmiş və 1920-ci ildin may ayınadək dövlət statusuna malik olmuşdur.

1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra üçrəngli bayrağımız milli suverenliyimizin simvolu kimi ölkəmizin bütün vətəndaşları



üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir. Lakin dövlət müstəqilliyimiz elan olunmazdan xeyli əvvəl, hələ sovet hakimiyyətinin mövcud olduğu dövrdə xalqımızın böyük oğlu Heydər Əliyev tərəfindən Naxçıvanda üçrəngli Azərbaycan bayrağı ucaldılmışdır.

1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyası Azərbaycan dövlətçiliyinin dirçəliş prosesinin həyata keçirilməsi ilə bağlı bir sıra məsələləri müzakirəyə çıxarmış və tarixi qərarlar qəbul etmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1820) Dövlət bayrağı olan üçrəngli bayrağımızın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olması barədə qərar vermişdir. Naxçıvan Ali Məclisi eyni zamanda Azərbaycan Respublikasının qanunverici orqanına respublikamızın dövlət rəmzlərinin-bayraq, gerb, himnin dəyişdirilməsi barədə təkliflər təqdim etmişdir.

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunduqdan sonra Azərbaycan Respublikası onun varisi kimi respublikamızda onun dövlət rəmzləri, o cümlədən dövlət bayrağı bərpa olunmuşdur. Həmçinin “Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında” Qanun qəbul edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin respublikamızın dövlət atributlarına, o cümlədən üçrəngli bayrağımıza göstrədiyi böyük ehtiram, bu məqsədlə həyata keçirilən tədbirlər ölkəmizdə milli həmrəyliyin daha da möhkəmlənməsinə, azərbaycançılıq məfkurəsinə və dövlət rəmzlərinin təbliğinə xidmət edən böyük amillərdir.

Bu istiqamətdə atılan mühüm addımlardan biri dövlət bayrağı gününün təsis edilməsidir. Əvvəldə qeyd etdiyimiz kimi Azərbaycan Respublikasının üçrəngli Dövlət Bayrağı ilk dəfə rəsmi surətdə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən 1918-ci il noyabrın 9-da qəbul edilmişdir. Bunu nəzərə alaraq Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncam imzalamışdır. Bu sərəncama uyğun olaraq hər il noyabr ayının 9-da ölkəmizdə Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü qeyd olunur.

**Qüdrət SƏMƏDOV,**
**“Qəbələ”**

# Məktəbdə bayram tədbiri

***Qəbələ şəhər 2 nömrəli tam orta məktəbində 18 oktyabr Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü ilə əlaqədar bayram tədbiri keçirilmişdir.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanmışdır. İlk öncə tarix müəllimi Leyla İsmayılova xalqımızın müstəqillik uğrunda apardığı çətin və şərəfli mübarizə yolundan, ulu öndər Heydər Əliyevin müstəqilliyimizin qorunub saxlanılması üçün göstərdiyi böyük fədakarlıqdan danışmışdır. Sonra məktəbəqədər hazırlıq qrupunun balaca fidanları vətənə, anaya, ordumuza aid şeirlər söyləmişlər.



Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında çıxışlarından video fraqmentlər nümayiş etdirilmişdir.

Azərbaycan xalqının əsrlər boyu yadelli işğalçılara qarşı, vətənimizin azadlığı və suverenliyi uğrunda mübarizəsinin bədii əsərlərdə əks olunmuş hissələri teatrlaşdırılmış şəkildə tədbir iştirakçılarına çatdırılmış, bu mövzudakı filmlərdən parçalar göstərilmişdir.

Ümummilli lider Heydər Əliyevin “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, Azərbaycanlıyam” kəlamının bədii təqdimatı xüsusi maraqla qarşılanmışdır.

Bir sözlə vahid sujet əsasında, peşəkarlıqla hazırlanmış tədbirin hər bir anı iştirakçıların alqışları ilə müşayət olunmuşdur.

Tədbirdə məktəbin IV[a], VI[a] və VIII[a] siniflərinin şagirdləri fəallıqları ilə fərqlənmişlər.

Məktəbin direktoru Təranə Səlimova, rayon təhsil şöbəsinin əməkdaşı Şəlalə Zəkəriyyəyeva və başqa çıxış edənlər tədbirin hazırlanmasında böyük zəhməti olan məktəbin müəllimləri Təhminə Mirzəliyevaya, Samirə Səmədovaya və digərlərinə təşəkkürlərini bildirmişlər.

**Səfa ASLANOV,**
**“Qəbələ”**

# Müsabiqəyə yekun vurulub

***Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Qəbələ rayon tam orta məktəblərinin IX-XI sinif şagirdləri arasında “18 oktyabr–Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü”nə həsr edilmiş “Müstəqilliyimiz əbədidir, dönməzdir və sarsılmazdır” mövzusunda inşa yazı müsabiqəsi keçirilmişdir. Müsabiqədə 22 nəfər şagird iştirak etmişdir.***

Oktyabrın il 17-də rayon icra hakimiyyətinin akt zalında müsabiqəyə yekun vurulmuş və qaliblərin mükafatlandırılması mərasimi keçirilmişdir.

Rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov bildirmişdir ki, inşa müsabiqəsinin keçirilməsində məqsəd gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik ruhunda tərbiyə olunmasından ibarətdir. F. Soltanov qeyd edib ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı” qəbul olunub. Bu mühüm tarixi sənədlə xalqımız uzun



illərdən bəri həsrətində olduğu azadlığına qovuşmuşdur. O dövrdən keçən müddət ərzində Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi artım tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb. Regionda heç bir irimiqyaslı layihə Azərbaycanın iştirakı və razılığı olmadan həyata keçirilmir. Münsiflər heyətinin sədri Ruslan İsmayılov müsabiqəyə yekun vurmuş, qalibləri təbrik etmişdir.

Müsabiqənin əsasnaməsinə uyğun olaraq 1 nəfər I yerə, 2 nəfər II yerə, 3 nəfər III yerə layiq görülmüşdür. İnşa yazı müsabiqəsinin yekunlarına əsasən Zalam kənd tam orta məktəbin şagirdi Aytac Ağayeva I yerə, Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin şagirdi Aysel Kərimova və Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin şagirdi Bikəxanım Balayeva II yerə, Zarağan kənd 1 nömrəli tam orta məktəbin şagirdi Gülay Ağarzayeva, Soltannuxa kənd tam orta məktəbin şagirdi Gülay Heydərova və Böyük Pirəlli kənd tam orta məktəbin şagirdi Rahilə Eyvazova III yerə layiq görülmüşlər.

Qaliblər Gənclər və İdman İdarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Mübariz AĞAYEV,**
**gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi.**

# Dövlət Müstəqilliyi Günü qeyd edilib

*Qəbələ Müalicə Diaqnostika Mərkəzində 18 oktyabr–Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr olunmuş tədbir keçirilib.*

*Tədbiri giriş sözü ilə açan mərkəzin baş həkimi Ceyhun Əhmədov qeyd edib ki, oktyabrın 18-i Azərbaycanın yeni tarixində ən əlamətdar günlərdən biridir. Azərbaycan Respublikasının Ali Soveti 1991-ci ildə yaranan tarixi şəraitdən istifadə edərək həmin gün «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul edib. Lakin dövlət müstəqilliyinin ilkin mərhələsində–1991–1993-cü illərdə xalqımız böyük çətinliklərlə üzləşib, ağır sınaqlardan keçib. Yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlət müstəqilliyi qorunub saxlanılıb, möhkəmləndirilib, dönməz və əbədi xarakter alıb, respublikamız sürətli inkişaf yoluna qədəm qoyub.*

*Mərkəzin şöbə müdiri Kəmalə Alıyeva bildirib ki, 18 oktyabra aparan yol nə qədər mürəkkəb idisə, bu müstəqilliyin qorunub möhkəmləndirilməsi də bir o qədər məsul və şərəfli idi. Ölkəmiz üçün taleyüklü bu vəzifənin öhdəsindən isə məhz xalqımızın ümummilli lideri Heydər Əliyev gələ bildi. Ulu öndər respublikanı 1990-cı illərin əvvəllərində yaranmış ağır ictimai-siyasi vəziyyətdən çıxararaq müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi yolunda misilsiz xidmətlər göstərdi.*

*Tədbirdə həkim Kamran Abdullayev 28 il əvvəl Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinin tarixi əhəmiyyətindən danışıb. O, çıxışında müstəqil Azərbaycan Respublikasının keçdiyi şərəfli yoldan, ulu öndər Heydər Əliyevin və onun siyasi davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlardan, ölkəmizin inkişafı istiqamətində görülən işlərdən bəhs edib.*

***Səhrab UMUYEV,***
***“Qəbələ”***

# Sərgi təşkil olunub

Heydər Əliyev Mərkəzində Qəbələ Dövlət Rəsm Qalareyası ilə birgə “18 oktyabr–Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günüdür” adlı sərgi təşkil edilib.

Sərgidə yerli həvəskar rəssamların əl işləri nümayiş olunub.

Sərginin açılış mərasimində mərkəzin direktoru Kəmalə Qasımova çıxış edərək 1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası Ali Soveti tərəfindən «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nın qəbul olunduğunu, xalqımızın uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşduğunu və bununla da ölkənin tarixində yeni dövrün başlanğıcının qoyulduğunu bildirib.

Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr ounan sərgini şəhərin ümumtəhsil məktəblərinin şagirdləri ziyarət edib.

**«Qəbələ»**